

Çaydandakı suyun uzun müddət və ya dəfələrlə qaynaması zamanı onun tərkibindəki kimyəvi maddələr dəyişilir və qaynama prosesi uzun müddət davam etdikdə bu birləşmələr yenidən öz tərkibini dəyişməyə başlayır.
Təkrar və ya dəfələrlə qaynadılmış çaydanın suyundan istifadə etmək orqanizm üçün çox zərərlidir. Çünki, araşdırmalar belə suyun tərkibində zəhərli maddələr olduğunu meydana çıxarmışdır.
1. Mişyak
DALGA TV□ immunitet.az -a istinadən bildirir ki, dünyanın bütün səhiyyə təşkilatları tərkibində mışyak olan qida maddələrinin orqanizm üçün zərərli olduğunu və belə qidalardan istifadə etmənin insan ölümünə səbəb ola biləcəyini qeyd etmişdir. Uzun müddət və ya dəfələrlə qaynadılmış suyun tərkibində isə mışyakın əmələ gəldiyi sübut olunub.
2. Nitratlar
Nitratlara hər yerdə, suda və havada da rast gəlmək mümkündür. Bu maddə orqanizmdə yoğun

bağırsaq, yumurtalıq, sidik kisəsi, mədəaltı vəz və s. orqanlarda xərçəng xəstəliyinin əmələ gəlməsinə səbəb olur. Dəfələrlə qaynamış suyu içdikdə isə biz hər gün nitrat qəbul etmiş oluruq.
3. Ftor
Ftorun insan orqanizmi üçün təhlükəli olduğu çoxdan öz sübutunu tapıb. Ftor insanların IQ səviyyəsini aşağı sala biılən bir maddədir.Çox qaynayan suyun tərkibin də də ftorlu birləşmələrə rast gəlmək mümkündür.
2013 cü ildə siçanlar üzərində aparııan araşdırmalar zamanı ftor qəbulı edən dişi siçanların hamilə qalmaq qabiliyyətinin aşağı düşdüyü aşkar edilmişdir.
Uzun müddət qaynanmış suyu içməklə arıqlayan var. Bu arıqlama isə ftorlu birləşmələrin orqanizmdə əmələ gətirdiyui zərərli patolojiyalara səbəb olmasıdır.
Ümid edirəm ki, siz bunu oxuduqdan sonra çaydanı qaynamağa qoyub başqa iş dalınca getməyəcəksiniz. Sağlamlığınızın qeydinə qalmaq üçün həmişə təzə qaynamış su ilə təzə dəmlənən çay içib həyatda zövq almağa çalışın.
Oxuduqlarınızı bəyəndinizsə, dostlarınızla paylaşıb onları da məlumatlandırın.